Azərbaycan.- 2017.- 25 oktyabr.- S. 2.

# Milli Məclisdə görüş

Oktyabrın 24-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Pan-Afrika Parlamentinin sədri Rocer Nkodo Danqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.



Sədr qonaqları salamlayaraq ümidvar olduğunu bildirdi ki, Pan-Afrika Parlamenti sədrinin ölkəmizə ilk səfəri qarşılıqlı faydalı əməkdaşlığın uğurlu başlanğıcı olacaqdır. Qeyd edildi ki, səfər çərçivəsində qonaqlar ölkəmizin zəngin tarixi keçmişi, hazırkı nailiyyətləri və perspektivləri barədə geniş məlumat alacaqlar.

Ölkəmiz barədə qonağa ətraflı məlumat verən spiker dedi ki, Azərbaycan 25 ildir ki, müstəqillik əldə edib. Buna baxmayaraq ölkə parlamentinin zəngin tarixi ənənələri var. Ötən əsrin əvvəlində Şərqdə ilk demokratik respublika Azərbaycanda qurulmuş, hətta Avropa ölkələrindən öncə qadınlara seçki hüququ verilmişdir. Sonralar 70 il sovetlər birliyində olmağımıza baxmayaraq, xalqımız milli-mənəvi dəyərlərini və tarixi ənənələrini qoruyub saxlaya bilmişdir. O dönəmdə neft ölkəsi kimi tanınan Azərbaycan bu gün də bu milli sərvəti ilə dünyada böyük nüfuz qazanmışdır.

Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində neftdən əldə edilən gəlir insan kapitalına çevrilməkdədir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TAP və TANAP kimi qlobal neft və qaz kəmərlərinin reallaşmasına böyük töhfələr verən Azərbaycan Avropanın enerji xəritəsini dəyişməyə qadirdir. Ölkədə təkcə enerji layihələri deyil, iqtisadiyyatın digər sahələri də sürətlə inkişaf etməkdədir. Bu gün Azərbaycan brendi adı ilə bir çox məhsullar xaricə ixrac olunur. Bariz nümunə kimi "ASAN xidmət"i də göstərə bilərik. Sırf Azərbaycan brendi olan bu xidmət yarandığı gündən ötən beş il ərzində 5 milyon insana 2 milyona yaxın xidmət göstərib. Bura müraciətlərin sayı 17 milyona çatıb. Afrika İttifaqına üzv ölkələr tərəfindən də "ASAN xidmət" modelinə böyük maraq var. Ötən ilin dekabrında təşkilatın mənzil qərargahında "ASAN xidmət" haqqında təqdimat keçirilmişdir.

Azərbaycanla Afrika ölkələri arasında iqtisadi əlaqələrdən söz açan sədr bu sahədə geniş potensial olduğunu söylədi. Bildirildi ki, Azərbaycanla Cibuti arasında imzalanmış sazişə əsasən, "Silk Way" yükdaşıma şirkəti ilə hava daşımaları sahəsində uğurlu əməkdaşlıq həyata keçirilir. Gələcəkdə Keniya ilə də belə bir sazişin imzalanması gözlənilir. Sədr humanitar sahədə də ölkəmizin Afrika dövlətləri ilə əməkdaşlıq etdiyini diqqətə çatdırdı. Qeyd edildi ki, Afrika İttifaqına daxil olan 9 ölkədə Azərbaycanın "AİDA" təşkilatı tərəfindən 50 mindən çox insanın görmə qabiliyyəti bərpa olunub. Biz gələcəkdə də humanitar sahədə Afrika ölkələri ilə əməkdaşlıq etmək niyyətindəyik.

Sədr dedi ki, Afrika İttifaqına daxil olan 27 ölkə ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurlu əlaqələrimiz formalaşmışdır. Biz parlamentlər səviyyəsində münasibətlərimizi genişləndirmək arzusundayıq. Müxtəlif beynəlxalq qurumlarda deputatlarımız fəal iştirak edirlər. 2011-ci ildən ölkəmiz Afrika İttifaqında müşahidəçi qismində iştirak edir. Pan-Afrika Parlamentində də belə bir status almaq niyyətindəyik.

Spiker daha sonra qeyd etdi ki, hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolunda inamla addımlayan Azərbaycanda söz və mətbuat azadlığı, insan hüquqları ön cərgədədir. Azərbaycan özünün tolerantlığı, multikultural dəyərləri ilə bütün dünyada tanınmışdır. Avropanın və islam ölkələrinin mədəniyyət nazirlərini bir araya gətirən də məhz ölkəmizin paytaxtı Bakı olmuşdur. Heç də təsadüfi deyil ki, Bakı sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu bir məkana çevrilmişdir. Azərbaycanın bu təşəbbüsü BMT tərəfindən "Bakı prosesi" kimi adlandırılmışdır. Azərbaycanın beynəlxalq tədbirlərin keçirilməsində böyük təcrübəsi var. 2015-ci ildə I Avropa oyunlarına evsahibliyi edən Bakıda İslam Həmrəyliyi Oyunları da müvəffəqiyyətlə keçirildi. Biz "EKSPO-25" sərgisinin də Bakıda keçirilməsində iddialıyıq. Ümidvarıq ki, bu məsələdə sizin təşkilat da öz dəstəyini əsirgəməyəcək.

Dağlıq Qarabağ münaqişəsindən də söz açan sədr problemin regionun inkişafına göstərdiyi mənfi təsirlərdən, bu münaqişənin acı nəticələrindən söz açdı. Qeyd edildi ki, bu gün işğalçı Ermənistandan başqa, bütün dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdarıq.

Səmimi görüşdən minnətdarlığını bildirən Pan-Afrika Parlamentinin sədri Rocer Nkodo Danq ölkəmizə səfərindən və burada keçirdikləri görüşlərdən məmnun qaldıqlarını söylədi. O, "Azərbaycanda olan tolerantlığı dünyanın heç bir ölkəsində tapa bilmərik" deyərək ölkəmizdə demokratiyanın tarixən zəngin ənənələri olduğunu vurğuladı.

Bildirildi ki, Cənubi Qafqazın belə bir ölkəsi ilə əməkdaşlıq etmək hər iki tərəfin mənafelərinə xidmət edir. Qonaq xüsusi qeyd etdi ki, Afrika ölkələri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və regional münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tərəfdardır. Pan-Afrika Parlamenti də beynəlxalq hüquqa böyük hörmətlə yanaşır.

Qonaq Milli Məclisin Pan-Afrika Parlamentində müşahidəçi statusu alması məsələsinə müsbət yanaşaraq, müraciət olunacağı təqdirdə məsələnin tezliklə həllini tapacağına inamını ifadə etdi. Bildirildi ki, Bakının beynəlxalq tədbirlərə evsahibliyi sahəsindəki müsbət təcrübəsini nəzərə alaraq qonağın təmsil etdiyi təşkilat "EKSPO-25" sərgisinin Bakıda keçirilməsi ilə bağlı məsələdə ölkəmizin namizədliyini dəstəkləyəcək.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Cibuti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Vüsal Hüseynov, ölkəmizin Efiopiyada və Cibutidəki səfiri Elman Abdullayev, Pan-Afrika Parlamentinin üzvü, Birləşmiş Tanzaniya Respublikası Milli Assambleyasının nümayəndəsi xanım Mhita Mboni Məhəmməd və digər rəsmi şəxslər iştirak edirdilər.

***Foto Fərman BAĞIROVUNDUR***